**«Niyə» sualının cavabını müəyyən edin.** Baş verən hadisə niyə baş verib? Süjetdə təsvir edilən vəziyyətə gətirib çıxaran səbəblər mürəkkəb və qarışıq ola bilər.

## Niyə icra başçısı bunu etdi?

*Məsələn, çünki*

– insanlar zavodun tikiləcəyi barədə uzun müddət eşidirdi, amma harada tikiləcəyini bilmirdi. İnsanlar bunu öyrənmək istəyirdi.

– hakimiyyət hesab edir ki, zavodun tikilməsi zəruridir.

– Məmmədli kəndi yeganə uyğun yer olduğuna görə zavodu da orada tikəcəklər.

MƏTN: 15 fevral 2017-ci il tarixində || icra başçısı || bildirib ki, məişət tullantıları zavodunun tikintisi üçün yer müəyyən olunub və bu, Təzəkənd inzibati-ərazi dairəsində Məmmədli kəndidir. || İcra başçısı bunu «Cəsurlar» klubunda || uşaqlar və onların valideynləri ilə görüşdə, sakinlərdən birinin zavodun harada tikiləcəyi barəsində sualına cavab verərkən deyib. || İcra başçısı bu zavodun rayon üçün həyati əhəmiyyətə malik olduğunu hesab edir, çünki «günü-gündən abadlaşan rayonda» zibil məsələsi birdəfəlik həll olunmalıdır. Məmmədli kəndi zavodun tikintisi üçün yeganə münasib yerdir. Zavodun hansı ərazidə tikiləcəyini iki ilə qərar veriblər. ***Niyə?***